# 2022-2023-cü il

# QƏBUL İMTAHANI

TÜRKİYE DİYANET VAKFI BAKÜ TÜRK LİSESİ

| SİNİF | QRUP | VARİANT |
| --- | --- | --- |
| 8 | 3 | A |

AD, SOYAD:

ATA ADI:

İŞ NÖMRƏSİ:

1. Cavab kartında kodlaşdırma edən zaman mütləq **qara** və ya **tünd göy** rəngdə yazan *(mürəkkəb axıtmayan, diyircəkli)* **qələm istifadə edilməlidir**.

2. Cavab kartında **ad**, **soyad**, **müraciət(iş) nömrəsi**, **sinif**, **qrup** (*tələb edilən siniflər üçün*) məlumatlarını və sizə təqdim ediləcək kitabçanın **variantını** kodlaşdırmağı ***UNUTMAYIN***.
   - *Kodlaşdırma prosesində xəta baş verdikdə mütləq nəzarətçiyə müraciət edib, yardım istəyin. Əks halda cavab kartınız yararsız hala düşə və əlavə vaxt itkisi yaşaya bilərsiniz.*
   - *Qeyd edilmiş hissələr kodlaşdırılmadıqda və ya əksik kodlaşdırıldığı zaman nəticələriniz* ***HESABLANMAYACAQDIR***.

3. Cavab kartındakı ***boş sahələrdə***, eləcədə ***kənar xəttin*** üzərində müxtəlif tipli qaralamalar və əlavə qeydlər etmək **olmaz**.

4. İmtahanı bitirdikdən və ya imtahan üçün təyin edilmiş müddət bitdikdən sonra ***sual kitabçası*** və ***cavab kartı*** nəzarətçiyə təhvil verilməlidir.

5. Qapalı tipli test tapşırıqlarında edilmiş **4 səhv** cavab **1 doğru** (***1 səhv** cavab **0,25 doğru***) cavabın balına təsir edir.

6. İmtahan prosesi zamanı **QADAĞANDIR**: (*Belə hallar aşkar olunarsa, həmin şagirdlər imtahandan xaric oluna bilər.*)
   - İmtahana ***mobil telefon*** və ***digər rabitə vasitələri***, ***kalkulyator*** və ***digər elektron cihazlar***, ***konspekt***, ***lüğət***, ***cədvəl***, ***məlumat kitabçası***, ***xarici yaddaş qurğuları*** və ***başqa yardımçı vasitələr*** gətirmək, onlardan istifadə etmək;
   - ***Nizam-intizam qaydalarını*** pozmaq, ***zalda yerini dəyişmək***, ***gəzişmək*** və bu kimi ***digər hallarda imtahana mane*** olmaq;
   - Başqasının cavab kartı və kitabçasına ***baxmaq*** və ya öz cavab kartı və kitabçasına başqasının baxması üçün ***şərait yaratmaq***;
   - Nəzarətçiyə test tapşırıqlarının həllində kömək üçün və bu kimi digər məsələlərlə bağlı müraciət etmək;

## Açıq tipli test tapşırıqlarının doğru kodlaşdırma üsulları

---

*Cavablar soldan sağa doğru qaralanmalıdır. Məsələn sualın cavab "34"- olarsa*




*Seçim və xronoloji ardıcıllıq tipli suallarda "vergül" dairəsi əsla qaralanmamalıdır. Məsələn sualın cavabı 1,3,5- olarsa*




*Bir sütunda sadəcə 1 dairə qaralana bilər. Məsələn sualın cavabı 27-olarsa*



## İNGİLİS DİLİ

**1.** Match the words to their definitions.

*1. blockage* *2. employ* *3. rescue*

*a. a place where people can stay in a tent*
*b. something that stops something else passing through*
*c. to give work to someone*
*d. to cause pain to become less*
*e. to save someone away from a dangerous situation*

A) 1-d; 2-a; 3-e B) 1-c; 2-e; 3-a C) 1-e; 2-b; 3-c
D) 1-b; 2-c; 3-e E) 1-a; 2-d; 3-b

**2.** Choose the correct modal verb.
*You … show this letter to anyone else.*
A) haven't to B) mustn't
C) should to D) don't have
E) won't able to

**3.** Choose the correct tag question.
*He's arrived at the meeting late, …*
A) wasn't he? B) isn't he? C) hadn't he?
D) doesn't he? E) hasn't he?

**4.** Choose the correct tense forms.
*By the time the firefighters … there, the building … down.*
A) has arrived/burnt B) arrived/had burnt
C) had arrived/burnt D) arrived /has burnt
E) had arrived/had burnt

**5.** Choose the correct tense forms.
*Fuad … his clothes on the hanger as soon as he … them off.*
A) hang/took B) hung/took
C) will hang/will take D) hangs/will take
E) hung/has taken

**6.** Choose the correct tense form.
*The concert … just … and you can hear how beautifully the orchestra is playing.*
A) has/begun B) -/begins C) did/begin
D) was/beginning E) had/begun

**7.** Choose the correct interrogative sentence.
A) Who did you give the book to?
B) Whose boss does organize a celebration party every New Year?
C) Where did put you my umbrella?
D) Who have invited you to the wedding?
E) How much money she wants for the broken cup?

**8.** Choose the correct pair of conjunctions.
*I have saved some money, but it isn't enough to buy … a DVD player … an MP3 player.*
A) either/or B) either/nor C) both/or
D) neither/nor E) not also/but only

Qəbul İmtahanı - 2023

**9.** Choose the correct variant.
*If you listen to … carefully, you will see how … they are.*
A) that pieces of music/exciting
B) piece of music/excited
C) this piece of music/exciting
D) these pieces of music/exciting
E) a piece of musics/excited

**10.** Choose the correct articles.
*… Lake Baikal is … deepest lake in … world and it is situated in … southern Russia.*
A) -/the/-/the B) The/the/the/the
C) The/-/-/the D) -/the/the/-
E) -/-/the/the

**11.** Choose the correct tense and voice.
*Since Huseyn … our team, 3 golden medals … in the competitions.*
A) has been joined/were won
B) had joined/were won
C) joined/have won
D) was joined/have won
E) joined/have been won

**12.** Change the sentence into the Passive Voice.
*Little Murad broke the glass of the windows.*
A) The glass of the windows is broken little Murad.
B) The glass of the windows were broken by little Murad.
C) The glass of the windows was broken.
D) The glass of the windows was been broken by little Murad.
E) The glass of the windows had been broken.

**13.** Change the sentence into the Passive Voice.
*Who has checked those difficult tests?*
A) Who those difficult tests have been checked by?
B) Who have those difficult tests checked?
C) Who has those difficult tests been checked by?
D) Who have those difficult tests been checked by?
E) By whom had those difficult tests been checked?

**14.** Choose the correct variant.
*Thanks to online dictionaries, … easy to look the word …, learn … meaning and use … in the sentences.*
A) its/for/it's/it B) it's/at/it/its
C) it's/up/its/it D) it/after/its/it's
E) it's/forward to/it/its

**15.** Choose the correct variant.
*What made you … he was guilty?*
A) thinking B) think C) to think
D) thought E) had thought

**16.** Choose the correct uncountable nouns.
A) wealth, advice, story
B) furniture, information, bread
C) artist, peace, health
D) success, chalk, cup
E) bread, wall, gold

**17.** Answer the question in the Passive Voice.
*-Do they serve pizza at this restaurant?*
- …
A) No, they aren't.
B) Yes, it is.
C) No, they don't.
D) Yes, pizza was served at this restaurant.
E) Yes, this restaurant is served pizza.

**18.** Change the sentence into the Passive Voice.
*You must solve most of the exercises during the lesson.*
A) Most of the exercises must be solve during the lesson.
B) Most of the exercises must be solved during the lesson.
C) Most of the exercises must be solved you during the lesson.
D) You must be solved most of the exercises during the lesson.
E) Most of the exercises must solved during the lesson.

**19.** Choose the correct degree of the adjective.
*I have never seen … country than Azerbaijan.*
A) most beautiful
B) much beautiful
C) a more beautiful
D) beautiful
E) the best beautiful

**20.** Choose the correct relative pronoun.
*She is speaking to Mrs. Javadli from … I haven't heard for many years.*
A) who
B) which
C) whom
D) that
E) whose

***Read the passage and answer questions 21-25.***

*If you want to learn a new language, you have to know that there are some things that good language learners do to learn it and some things they don't do.*

*Don't be afraid of making mistakes. People often make mistakes. Good language learners notice their mistakes and learn from them.*

*Do group activities. People use languages to communicate with other people. A good language learner always looks for opportunities to talk to other students.*

*Make notes during every class. Notes help language learners to remember the new language. They look at the notes when they do their homework.*

*Use a dictionary. Good language learners often use dictionaries to check the meaning of the words they don't know. **They** also make their own vocabulary lists.*

*Think in the language you are learning outside the classroom. Good language learners remember useful words and phrases when they are shopping or walking in the street. When they're at home, they say difficult words to practice their pronunciations.*

*Enjoy the process. Good language learners have fun with the language. They watch films, listen to songs or read a book.*

*Don't forget that it's never too late to become a good language learner and every hard-working language learner can succeed.*

**21.** Choose the **incorrect** statement according to the passage.
A) When good language learners are shopping or walking in the street, they should forget words and phrases.
B) Watching films, listening to songs or reading books is enjoyable for good language learners to learn the language.
C) Making notes during the lesson helps good language learners to remember the new language.
D) Good language learners always look for opportunities to speak to other students.
E) For checking the meaning of the words, good language learners often use dictionaries.

**22.** Which question has **no** answer in the passage?
A) When do language learners look at their notes?
B) What do good language learners do if they make mistakes?
C) Why do people use languages?
D) What should good language learners do for learning a language when they are at home?
E) At what age should a person be for learning new languages?

**23.** What does the pronoun "*they*" refer to?
A) other students
B) group activities
C) good language learners
D) vocabulary lists
E) the meaning of the words

**24.** Choose the adjective that characterizes "words".
A) good
B) new
C) useful
D) late
E) hard-working

**25.** Which word from the passage has the meaning "*to achieve something that has been aimed for*"?
A) to succeed
B) to use
C) to forget
D) to remember
E) to communicate

## ƏDƏBİYYAT

**26.** S.S Axundovun "*Nurəddin*" hekayəsindəki hadisələrin başvermə ardıcıllığını göstərin.

*1. Rəhim "Gülüstan" kitabı vasitəsilə Nurəddinin kimliyini öyrənir.*
*2. Nurəddin Cənnətəli ilə ilk dəfə görüşür.*
*3. İmamverdi babanın iflic azarından dili tutulur.*
*4. Nurəddin Əmiraslanın evinə köçür.*
*5. Gülpəri Nurəddinə pul verib məktəbə göndərir.*

A) 2,4,5,3,1 B) 5,3,2,4,1 C) 1,4,3,2,5
D) 5,4,3,2,1 E) 5,1,3,4,2

**27.** Lirik növə aid olan xüsusiyyətləri müəyyən edin.

*1. Müəyyən ölçünün (vəznin) tələblərinin gözlənilməsi güclü ahəng yaradır.*
*2. Əhvalat və hadisə yox, onların şairdə oyatdığı təəssürat ifadə olunur.*
*3. Bu növdə olan əsərlərdə hadisələrin, insanların, təbiətin təsvirinə imkan olmur.*
*4. İnsanın mənəvi aləminin, xarici görkəminin təsvirinə geniş yer verilir.*
*5. Həyat hadisələri obrazların danışığı, davranışı və hərəkətləri ilə ifadə olunur.*

A) 1,2 B) 2,3,4 C) 1,5 D) 3,4,5 E) 1,2,4

**28.** Nümunədə hansı bədii təsvir vasitələri işlənmişdir?

***Axır dəniz kimi yaşıl zəmilər,***
***Gül gülü çağırır, sünbül sünbülü. (S.Vurğun)***

A) epitet, metonimiya B) təşbeh, simvol
C) epitet, təşbeh D) epitet, metafor
E) təşbeh, metafor

**29.** M.P.Vaqifin "*Hayıf ki, yoxdur...*" şeiri ilə bağlı düzgün fikirləri müəyyən edin.

*1. Şeirin təsir gücünü artırmaq üçün bədii sualdan istifadə olunmuşdur.*
*2. Bölgü bütöv söz prinsipinə əsaslanır.*
*3. Şeirin yaranması ilə bağlı rəvayət mövcuddur.*
*4. Kür qırağının gözəl təbiəti ilə xalqın dolanışığı arasındakı təzad ustalıqla ifadə olunmuşdur.*
*5. Son bənddə şairin təxəllüsü verilməmişdir.*

A) 1,3,5 B) 2,4,5 C) 2,3,4 D) 1,2,4 E) 3,4,5

**30.** S.Ə.Şirvaninin "*Qafqaz müsəlmanlarına xitab*" əsəri ilə M.Ə.Sabirin "*Əkinçi*" əsəri üçün ortaqdır:

A) satirik üslub B) şeir vahidi C) vəzn
D) yazıldığı bəhr E) maarifçi məzmun

**31.** Klasteri tamamlaya bilən fikirləri müəyyən edin.




*1. vətən həsrəti, qürbət sıxıntısı, qəriblik mövzusundadır.*
*2. rüşvətxor məmurların, yalançı din xadimlərinin açıq şəkildə tənqidinə həsr olunub.*
*3. müəllifin ictimai məzmunlu qoşmalarına aiddir.*
*4. M.F.Axundzadəyə müraciətlə yazılmışdır.*
*5. sevgilisindən xoş üz görməyən aşiqin qürbət sıxıntısını əks etdirir.*

A) 2,3 B) 1,4 C) 3,4 D) 1,3 E) 2,5

**32.** "*Bahariyyə*"dən (*Ş.İ.Xətayi*) gətirilmiş nümunələrdə buraxılmış sözləri ardıcıllıqla bərpa edin.

*Mey bəslədi ... hər vərəqdə,*
*Turac kitab oxur təbəqdə.*
*... əlini çü rəqsə açdı,*
*Gül xırda zərin şəbaşə saçdı.*
*... daramış saçın beşanə,*
*Ənbər qoxusun qılır fəşanə.*

A) jalə, çinar, sünbül B) lalə, sünbül, çinar
C) jalə, bənövşə, sərv D) lalə, çinar, nilufər
E) nərgis, jalə, sünbül

**33.** H.Cavidin "*Ana*" əsərində Səlma obrazı ilə bağlı **yanlış** fikri müəyyən edin.

A) Oğlunu öldürənə əvvəl mərhəmət edir, sonra intiqam almağı planlaşdırır.
B) Oğlunun sağalmaz yara aldığını Səlim ona deyir.
C) Qonaqpərvər, mərd və məğrur qadındır.
D) Daxili mənəvi böhrandan milli adət və ənənəyə əsaslanan böyük insani hisslə çıxır.
E) Qanpoladın xəncərini çəkib özünü vurmaq istəyən İsmətə mane olur.

**34.** "*Koroğlu ilə Bolu bəy*" qolunda Koroğlu azad ediləndən sonra onunla Çənlibelə yola düşənlər içərisində **yoxdur:**

*1. Dünya xanım* *2. Bolu bəy*
*3. Mehtər Murtuz* *4. İsabalı*
*5. Həsən paşa*

A) 2,3,5 B) 3,5 C) 1,3,4 D) 2,5 E) 3,4,5

**35.** M.İbrahimovun *"Azad"* hekayəsi ilə bağlı doğru fikirləri müəyyən edin.

*1. Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın milli-azadlıq mübarizəsindən bəhs olunur.*
*2. Fərda yoldaşları arasında sakitliyi və lal-dinməzliyi ilə seçilir.*
*3. Azad sözlə ifadə edə bilmədiklərini əməli ilə göstərir.*
*4. Təhsilini davam etdirdikdən sonra Azadın xarakterində ciddi dəyişikliklər baş verir.*
*5. Əsərin sonunda Azadın arzusu yerinə yetirilir.*

A) 1,2,4 B) 2,3,4 C) 2,3,5 D) 1,3,4 E) 1,3,5

**36.** İ.Krılovun *"Ağac"* təmsilindəki obrazlarla bağlı uyğunluğu müəyyən edin.

***1. Ağac 2. İlan***

*a. Düşünmədən qərar verməsinin cəzasını çəkir.*
*b. Müdrik insanları təmsil edir.*
*c. Öz vəziyyətindən şikayətlənir.*
*d. Dosttək xidmət göstərmək istəyir.*
*e. Tənbəl və xəyanətkar olduğu üçün məğlubiyyətə uğrayır.*

A) 1-a; 2-d,e B) 1-b,e; 2-c C) 1-c; 2-b,e
D) 1-a,c; 2-b E) 1-c,d; 2-b

**37.** M.Hadinin *"Türkün nəğməsi"* əsəri ilə bağlı **səhv** fikri müəyyən edin.

A) Əsərdə məfkurə yolunda tökülən qanların hədər olmayacağı bildirilir.
B) Qan ilə qazanılan zəfərin əldən verilməyəcəyinə inam ifadə olunur.
C) Şeir rəməl bəhrində yazılmışdır.
D) Şeirdə azadlıq uğrunda mübarizə əzmi əks olunmuşdur.
E) Şair əsərdə təxəllüsünü işlətməmişdir.

**38.** Hansı fikir *"Çahargah əfsanəsi"* əsərindəki vəzir obrazına aiddir?

A) Alimə sarayda qalmağı təklif edir.
B) Niyyəti çətin suallarla alimi çıxılmaz vəziyyətə salıb xalqın gözündə kiçiltmək idi.
C) Alimi əllaməlikdə günahlandırır, xalqı aldatdığını bildirir.
D) Firavan saray həyatının qiymətləndirilməməsini nankorluq hesab edir.
E) Alimin hərəkətlərinə tədbirlə cavab verilməsini tələb edir.

**39.** X.Şirvani *"Gənclərə nəsihət"* şeirində nəyi vəfa, etibar kimi cana məlhəm xüsusiyyətləri məhv edən, dağıdan cəhət kimi göstərir?

A) fitnəkarlığı B) nadanlığı C) lovğalığı
D) oğurluğu E) bivəfalığı

**40.** *"Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"*da hansı suala cavab **yoxdur?**

A) Qazan bəy qarşısına baxıb oğlu Uruzu gördükdə niyə ağlayır?
B) Uruzun əsir düşməsinə səbəb nə olur?
C) Qazan bəy oğlunun döyüşməsinə nədən icazə vermir?
D) Kafirin bayrağını kim qılınclayıb yerə saldı?
E) Qazan bəy ova gedərkən qərargahının üstündə kimi qoyur?

**41.** M.Füzulinin *"Söz"* qəzəlindən verilmiş misraya əsasən beyti tamamlayın.

***Artıran söz qədrini sidq ilə qədrin artırar,***
**. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .**

A) Edə hər saət səni ol uyqudan bidar söz.
B) Göstərər hərdəm niqabi-ğeybdən rüxsar söz.
C) Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
D) Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.
E) Rişteyi-izharə min-min gövhəri-əsrar söz.

**42.** Hansı əsərdən söhbət gedir?

● *Əsər Azərbaycan Rusiya imperiyasının müstəmləkəsi olarkən yazılmışdır.*
● *Əsərin qəhrəmanı polis idarəsində xidmət edən, yadelli ağalarına sədaqətli olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxan nökər təbiətli adamdır.*
● *Əsər həcmcə kiçikdir və gözlənilməz sonluqla bitir.*

A) "Bomba" B) "İntiqam" C) "Dərs"
D) "Nurəddin" E) "Qurbanəli bəy"

**43.** Ç. Aytmatovun *"Manqurt"* (*"Gün var əsrə bərabər"*) əsərinin ideyasını müəyyən edin.

A) Müharibədə əsirlərlə amansız rəftar yolverilməzdir.
B) İnsana öz soykökünü unutdurmaq dəhşətli cinayətdir.
C) Özünü başqalarından üstün tutmaq eqoistlikdir.
D) Uzaq yola tək çıxmaq olmaz.
E) Ana üçün övlad məhəbbətindən yüksək heç nə yoxdur.

**44.** Ə.Cavadın *"Azərbaycan bayrağına"* şeirində əks olunmuşdur:

*1. Bayrağımızdakı rəmzi işarələrin mənası*
*2. Vətənimizin zəngin təbii sərvətləri*
*3. Üçrəngli bayrağın müqəddəsliyi və ucalığı*
*4. Türk ellərinin birliyi*
*5. Yadelli işğalçılara qarşı mübarizə*

A) 1,2,4 B) 2,4,5 C) 1,3,4 D) 2,3,5 E) 3,4,5

**45.** Nöqtələrin yerinə yazıla bilər:
*"Əqrəb və Çanaqlı bağa" (M.Seyidzadə) təmsildir, çünki ...*

A) müəyyən dövrdə baş vermiş əhvalat həyati həqiqət kimi söylənir.
B) sehrli qüvvələr təsvir olunur.
C) həcmcə yığcamdır, alleqorik və nəsihətamiz səciyyə daşıyır.
D) hadisə haqqında üstüörtülü şəkildə məlumat verilir.
E) həyat hadisələri, obrazların taleyi geniş təsvir edilir.

**46.** **Yanlış** fikri müəyyən edin.

A) Dram janrında əks mövqedə duran qüvvələrin münaqişəsinə, mübarizəsinə geniş yer verilir.
B) Satirik əsərlərdə gülüş acı, hiddətli, məhvedici olur.
C) Bahariyyə müxtəlif janrlarda yazılmış müstəqil şeir formasında, yaxud irihəcmli əsərlərdə-poemada parça şəklində olur.
D) Yazıçının şəxs, əhvalat və hadisə haqqındakı qənaətinin əksinə olan fikri ifadə etməsi kinayə adlanır.
E) Əsərin bütün hissələrinin, epizodlarının yerləşdirilməsi, qarşılıqlı əlaqələndirilməsi süjet adlanır.

**47.** M.Müşfiqin *"Yağış yağarkən"* şeirində nə ifadə edilmişdir?

**Yağışın ....**

*1. insanlara sevinc, təbiətə gözəllik gətirməsi*
*2. bir çox problemlərə səbəb olması, sel və dağıntı yaratması*
*3. yağmasının doğurduğu hiss və düşüncələr*
*4. yağmasının təsviri ilə yanaşı, bu təbiət hadisəsinə insanın münasibəti*
*5. yağmasına tamaşa edən əmək adamlarının istəkləri*

A) 1,3,4 B) 2,3,4 C) 1,2,3 D) 2,4,5 E) 1,4,5

**48.** Verilmiş nümunə hansı əsərdəndir?
*Hər kimdə ki vardısa, ağıllılıq cövhəri,*
*O bacarar hər işi, parlar onun gövhəri.*

A) "Sultan Səncər və qarı"
B) "Ağıllı uşaq"
C) " Hikmətin fəziləti"
D) " Yaralı bir uşağın dastanı"
E) "Qafqaz müsəlmanlarına xitab"

**49.** S.Əhmədlinin *"Dərs"* hekayəsində təsvir edilən direktor nədən qorxurdu?

A) gənc nəslin mənəvi dəyərlərə sadiq olmayacağından
B) uşaqların imtahan nəticələrinin aşağı olacağından
C) vəzifədən çıxardılıb partbiletinin alınacağından
D) qəzetlərin yanlış məlumat verməsindən
E) atışmanın davam edəcəyindən

**50.** Z.Xəlilin *"Zeynalabdin"* əsəri ilə bağlı doğru və yanlış fikirləri müəyyən edin.

| | |
|---|---|
| *Zeynalabdin Azərbaycan xalq ədəbiyyatının bilisi idi.* | |
| *III Aleksandr Zeynalabdinə qız məktəbi açmağa icazə verdi.* | ***Doğru*** |
| *Zeynalabdin kiçik yaşlarından tikintidə fəhlə işləməyə məcbur olur.* | ***Yanlış*** |
| *Tikdirdiyi evdə indi Azərbaycan Tarix Muzeyi yerləşir.* | |

A) 
B) 
C) 
D) 
E) 

## TARİX

**51.** Hadisə - nəticə əlaqələrinin doğru verildiyi bəndi müəyyən edin:

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | "İkinci yüzillik"müharibənin baş verməsi | Böyük Britaniyanın Dünyanın birinci sənaye dövlətinə çevrilməsi |
| B) | İsveç əleyhinə ittifaqın təşkil olunması | Şimal müharibəsinin başlanması |
| C) | Kiçik Qaynarca müqaviləsinin imzalanması | Rusiyanın Qara dənizdə qəti olaraq möhkəmlənməsi |
| D) | Köprülü Mehmet paşanın islahatları | Osmanlı imperiyasının əvvəlki qüdrətini bərpa etməsi |
| E) | Şimali Amerikada ilk ingilis koloniyasının salınması | "İstiqlaliyyət müharibəsi"nin başlanması |

**52.** Mətnə və dərsliyinizdəki məlumatlara əsasən doğru cavabı müəyyən edin:

*1787 - ci ildə Amerikada bütün ştatların nümayəndələrinin iştirak etdiyi məclis ölkənin konstitusiyasını qəbul etdi. ABŞ konstitusiyasına görə qanunverici hakimiyyət konqresə məxsus idi. İcra hakimiyyətinə geniş səlahiyyətlərə malik olan prezident rəhbərlik edirdi. Prezident qanunlar üzərinə veto qoya bilərdi. Ölkənin məhkəmə sisteminə ABŞ - ın Ali məhkəməsi başçılıq edirdi.*

A) İlk dəfə hakimiyyətin bölünmə prinsipi tətbiq edildi və hakimiyyətin mənbəyinin xalq olduğu işdə, əməldə sübut edildi
B) ABŞ - da qəbul edilən konstitusiyaya əsasən quldarlıq quruluşu ləğv edildi
C) Respublika idarə üsulu yaradıldı və kralın səlahiyyətləri genişləndirildi
D) Ölkədə konstitusiyalı monarxiya quruluşu yaradıldı
E) Qeyri - məhdud hakimiyyətə malik olan prezident idarəsi yarandı

**53.** İngiltərənin XVII əsrin I rübü tarixinə aiddir:
*1. Ölkənin respublika elan edilməsi*
*2. Hakimiyyətə yeni sülalənin gəlməsi*
*3. Səfəvi dövləti ilə diplomatik əlaqələr saxlaması*
*4. Vətəndaş müharibəsinin baş verməsi*
*5. Fəhlə və burjuaziyanın cəmiyyətin əsas təbəqəsinə çevrilməsi*

A) 3,5 B) 1,4 C) 1,5 D) 2,3 E) 2,4



**54.** Şəki və Urmiya xanlıqlarının oxşar cəhətlərinə aiddir:
A) Təbriz xanlığını tutması
B) Qarabağ xanlığı ilə mübarizə aparması
C) Quba xanlığının hücumlarına məruz qalması
D) Bütün Azərbaycan torpaqlarını vahid dövlətin tərkibində birləşdirməsi
E) İrəvan xanlığını asılı vəziyyətə salması

**55.** İkinci Rusiya – Qacar müharibəsinə aid olan döyüşü müəyyən edin:

Gəncə → ? → Sərdarabad

A) Cavanbulaq B) Sultanbud C) Qarababa
D) Zəyəm E) Aslandüz

**56.** 18 - ci əsrin 20 - ci illəri və 19 - cu əsrin 20 - ci illəri Rusiya dövlətinə aid ümumi cəhət :
*1. Cənubi Qafqazda möhkəmlənməyə çalışması*
*2. Osmanlı dövləti ilə müqavilə imzalaması*
*3. Qacarlar dövləti ilə müharibələrin baş verməsi*
*4. Rus qoşunlarının Azərbaycandan çıxarılması*
*5. Azərbaycan torpaqlarının bir hissəsinin işğal edilməsi*

A) 2,3,5 B) 1,4,5 C) 1,3,4 D) 1,2,5 E) 2,3,4

**57.** Sxemə uyğun gələn cavabı müəyyən edin:

| | |
|---|---|
| "Qızılqaya xəyanəti"ndə iştirak etməsi | Şamaxı xanlığı ilə həmsərhəd olması |
| 2. ? | Quba xanlığının hücumlarının qarşısını alması |

Mərkəz: 1. ?

A) 1. İrəvan xanlığı ; 2. Birinci Rusiya – Qacar müharibəsi dövründə öz daxili müstəqilliyini qoruyub saxlaması
B) 1. Qarabağ xanlığı ; 2. Azərbaycanın bütün torpaqlarını birləşdirməsi
C) 1. Qarabağ xanlığı ; 2. Cavanşir tayfasının nümayəndəsi tərəfindən idarə olunması
D) 1. Şəki xanlığı ; 2. Şimal – Şərqi Azərbaycan torpaqlarını öz tərkibində birləşdirməsi
E) 1. Gəncə xanlığı ; 2. Qacar ordusu tərəfindən rus işğalından azad edilməsi

**58.** Uyğunluğu müəyyən edin:

1 – XVI əsr

2 – XVII əsr

| | |
|---|---|
| **a** | *Hörmüz limanının Portuqaliyalılardan geri alınması* |
| **b** | *Salyanda Rusiya əleyhinə üsyanın baş verməsi* |
| **c** | *İngiltərədə ilk parlamentin fəaliyyətə başlaması* |
| **d** | *Səfəvilər dövlətinin paytaxtının Qəzvinə köçürülməsi* |

A) 1-c, 2-b B) 1-a, 2-b C) 1-d, 2-a
D) 1-d, 2-b E) 1-a, 2-c

**59.** Nadir şah Əfşarın hakimiyyətdə olduğu dövrə aid cavabı müəyyən edin:

A) Muğan qurultayının çağırılması
B) Səfəvi dövlətinin ərazi bütövlüyünü təmin etməsi
C) Azərbaycan torpaqlarının vahid inzibati bölgüdə birləşdirilməsi
D) Xəzərsahili bölgələrdən rus qoşunlarını çıxarması
E) Azərbaycan torpaqlarını yadellilərdən azad etməsi

**60.** – ***17 - ci yüzilliyin birinci yarısı***
– ***18 - ci yüzilliyin birinci yarısı***

Verilmiş dövrlərdən heç birinə aid olmayan hadisəni müəyyənləşdirin:

A) Torpaqlarımızın rus qoşunlarının işğalçı yürüşlərinə məruz qalması
B) Azərbaycanda vahid mərkəzləşdirilmiş dövlətin mövcud olması
C) Azərbaycanın cənubunda xanlıq idarə - üsulunun ləğv edilməsi
D) Səfəvi – Osmanlı müharibələrinin baş verməsi
E) Azərbaycan torpaqlarının kiçik feodal dövlətlərinə parçalanması

**61.** Xanlıqlar dövründə daxili gömrük vergisi adlanırdı:

A) çöpbaşı B) əsnaf C) darğa
D) rəhdari E) tamğa

**62.** Xəritədə ərazisi ulduzla göstərilən xanlıqların oxşar cəhətlərinə aiddir:




A) Azərbaycan torpaqlarının birləşdirilməsi uğrunda mübarizə aparmaları
B) Müəyyən müddət Urmiya xanlığından asılı olmaları
C) "Qızılqaya xəyanəti"ndə iştirak etmələri
D) Birinci Rusiya – Qacar müharibəsinin sonuna qədər öz müstəqilliklərini qoruyub saxlamaları
E) Müqavilə imzalayaraq Rusiyanın tərkibinə qatılmaları



**63.** Birinci Rusiya – Qacar müharibəsi ilə İkinci Rusiya – Qacar müharibəsi arasındakı dövrdə Azərbaycanda:

A) Quba xanlığında yerli bəylərdən ibarət əyalət şurası yaradıldı
B) Aslandüz döyüşü baş verdi
C) Bakı xanlığı ləğv olundu
D) Gəncə xanlığı Yelizavetpol adlandırıldı
E) "Müsəlman əyalətləri rəisliyi" yaradıldı

**64.** Şamaxı xanlığı (1), Lənkəran xanlığı (2), Bakı xanlığı (3) və hər üç xanlığa aid olan cavabları müəyyən edin:




*a. Qubalı Fətəli xandan asılılığın qəbul edilməsi*
*b. 19 - cu əsrin 2 - ci onilliyində rus qoşunları tərəfindən işğal edilməsi*
*c. Rusiya tərəfindən işğal edildikdən dərhal sonra xanlıq idarə üsulunun ləğv edilməsi*
*d. Bir müddət ikihakimiyyətliliyin mövcud olması*
*e. Azərbaycan torpaqlarını birləşdirmə siyasəti yeritməsi*

A) 1e ,2a, 3cd, 4b B) 1c, 2b, 3d, 4a
C) 1d, 2b, 3c, 4a D) 1b, 2c, 3d, 4ae
E) 1ad, 2b, 3c, 4e

**65.** Sxemi doğru tamamlayan memarlıq abidəsini müəyyən edin:

İrəvan xanlığı
- Yay imarəti
- ?
- Sərdar sarayı

A) Göy məscid
B) Əsgəran qalası
C) Şahbulaq qəsri
D) Abbasabad qalası
E) Pənahəli xan məscidi

**66.** Uyğunluğu müəyyən edin:

**XVIII əsr**

| **1. ABŞ** | **2. Rusiya** |
|---|---|
| *a."Boston çay qonaqlığı"nın təşkil edilməsi*<br>*b. İspaniya ilə müttəfiq olması* | *a. Qara dənizdə qəti möhkəmlənməsi*<br>*b.Baltik dənizinə çıxış əldə etməsi* |

A) 1-a,b; 2-a B) 1-a; 2-b C) 1-a,b; 2-b
D) 1-b; 2-a,b E) 1-a,b; 2-a,b

**67.** Məntiqi ardıcıllığı tamamlayan cavabı müəyyən edin.

***Azərbaycan XIX əsrdə***

♦ *1.Birinci Rusiya – Qacar müharibəsinin başa çatması*
↓
♦ *2.Gülüstan müqaviləsinin imzalanması*
↓
♦ *3. ............................................................*

A) Şimali Azərbaycanın tam şəkildə Rusiyanın müstəmləkəsinə çevrilməsi
B) Azərbaycanın bütün şimal torpaqlarının Rusiya tərəfindən istilasının təsdiq edilməsi
C) Azərbaycanın şimalındakı bütün xanlıqların ləğv edilməsi
D) Lənkəran xanlığının Rusiya tərəfindən işğal edilməsi
E) Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalının birinci mərhələsinin başa çatması

**68.** 18 - ci əsrin ikinci yarısı Osmanlı dövlətinə aiddir:
A) "Lalə dövrü"nün başlanması
B) Səfəvi hökmdarı şah II Abbasla mehriban qonşuluq münasibətləri qurması
C) Qara dənizi "daxili dənizinə" çevirməsi
D) Şəki xanlığı ilə diplomatik əlaqələr saxlaması
E) Əfşarlar dövləti ilə müharibələr aparması

**69.** Sxemə uyğun olaraq doğru cavabı müəyyən edin.

**Şah I Abbas**

| | |
|---|---|
| Mərənd müqaviləsinin imzalanması | Xristianlara və yəhudilərə məbədlər tikməyə icazə verməsi |
| Odlu silaha malik nizami ordu yaratması | ? |

A) Səfəvi dövlətinin öz keçmiş qüdrətini bərpa etməsi
B) Səfəvi – Osmanlı müharibələrinin ikinci mərhələsinin başlanması
C) Mərkəzi Təbriz olan Azərbaycan əyalətinin yaradılması
D) Dövlətin paytaxtının Təbriz şəhərindən köçürülməsi
E) Rusiyanın Şimali Qafqazda möhkəmlənmək cəhdlərinin qarşısının alınması

**70.** Qubalı Fətəli xan və Hacı Çələbi xana aid ümumi cəhət:
A) Şamaxı xanlığını asılı hala salmaları
B) Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizə aparmaları
C) Şuşa qalasını mühasirəyə almaları
D) Yeni müstəqil dövlətin əsasını qoymaları
E) Azərbaycanın şimal - qərb torpaqlarının gürcü çarları tərəfindən işğalının qarşısını almaları

**71.** Səfəvi dövlətində Şah II Abbasın hakimiyyətə gəldiyi il İngiltərədə:
A) Respublika quruluşu elan edildi
B) "Prayd təmizləməsi " baş verdi
C) Vətəndaş müharibəsi başladı
D) Neyzbi döyüşü baş verdi
E) Uzunmüddətli parlament fəaliyyətə başladı

**72.** Xronoloji ardıcıllığı müəyyən edin:
*1. Lənkəran xanlığının ləğv edilməsi*
*2. Ədirnə müqaviləsinin imzalanması*
*3. Sultanbud döyüşünün baş verməsi*

**73.** Əfşarlar tayfasının nümayəndəsi tərəfindən əsası qoyulan xanlıqları xəritəyə əsasən müəyyən edin:




**74.** Klasteri tamamlayın:

*Timar və ziyamət sisteminin pozulması*

*Osmanlı İmperiyası*
*17-ci əsr*

1. *Gürcü çarının Qərbi Azərbaycan xanlıqlarına olan yürüşlərinə qarşı çıxması*
2. *Cəlalilər hərəkatına qarşı mübarizə aparması*
3. *Nizami – Cədid islahatlarının keçirilməsi*
4. *Avropada geniş ərazilər itirməsi*
5. *Səfəvi dövləti ilə müqavilə imzalaması*

**75.** Müqavilələrə aid uyğunluğu müəyyən edin:

***1. Gəncə  2. Georgiyevsk  3. Türkmənçay***

a. *I Pyotrun uğursuz xarici siyasəti nəticəsində imzalanması*
b. *Rusiyanın Quba və Lənkəran xanlıqlarının müstəqilliyinə toxunmayacağına təminat verməsi*
c. *Qacarların Xəzər dənizində yalnız Rusiyanın donanma saxlamaq hüququnu tanıması*
d. *Rus qoşunlarının Xəzərsahili vilayətləri tərk etməsi*
e. *İrəvan və Naxçıvan xanlıqlarının Fətəli şahın hakimiyyəti altında qalması*

**AZƏRBAYCAN DİLİ**

***Mətni diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 76-80 saylı tapşırıqları yerinə yetirin.***

Keçmişdə böyük elmi məqama sahib olan bir alim yaşayırmış. Onun əxlaq sahəsində yüksək elmi dəyəri olan bir kitabı sufilər təriqətinə mənsub olan dövrün böyük dərvişinin əlinə keçir. [1] Sufilər bütün dünya nemətlərindən kənar gəzən, var-dövlətdən, vəzifə və məqamdan tamamilə uzaq olan evsiz və hətta adsız yaşayan insanlardır.

Dərviş kitabı oxuduqdan sonra bu kitabın müəllifinin yüksək məqam sahibi olduğunu düşünür, onunla görüşmək qərarına gəlir.

Uzun axtarışdan sonra alimin yaşadığı yerə gəlib çatır, ondan-bundan soruşa-soruşa alimin evini tapır. Bir neçə mərtəbəli böyük bir malikanəni görən dərviş əvvəlcə doğru ünvana gəldiyinə şübhə edir. Bir neçə qonşudan təkrar soruşandan sonra düz gəldiyinə tam əmin olur. [2] Böyük narahatçılıq hissi keçirən dərviş əvvəlcə geri qayıtmaq istəyir, ancaq öz-özünə deyir ki, bu yalançı, özü yazıb, ancaq əməldə haqdan uzaq olan alimə bir neçə söz desəm, yaxşı olar.

Dərvişə qapını alimin özü açır. [3] Ondan kim olduğunu soruşduqdan sonra ürəyində onu narahat edən mətləbi deyir:

— Sən kitabında dünyapərəstlikdən uzaq olmaqdan, aza qane olmaqdan, maddiyyatın hədəf olmamasından, dünya nemətlərinin insan üçün böyük təhlükə olmasından yazdığın halda, özün bütün maddi nemətləri ətrafında toplamısan.

Alim onu içəri dəvət edir, bir az söhbət etdikdən sonra dərvişə deyir:

— Mənimlə yüksək mənəvi, ruhani məqama yetişmiş birini ziyarət etməyə gedərsənmi? Mən sənə hər şeyi yolda başa salacağam.

[4] Alim imarətinin qapısını bağlamadan, mülkünü kiməsə tapşırmadan evi tərk edir. Bir az yol gedəndən sonra birdən dərviş alimə: "Dayan, mən papağımı sizdə unutmuşam, gəl geri qayıdıb onu götürək",- deyir.

Dərviş geri qayıtmaq istəyəndə alim onun qolundan tutub deyir:

— Mən getdiyimiz müqəddəs məkana o qədər can atıram ki, sən mənimlə getməyə razılıq verən kimi bütün mülkümü tərk edib ora doğru tələsdim. Sənin isə min yerindən yamaq vurulmuş bir papağın var, onu bizim evdə unutduğuna görə geri qayıtmaq istəyirsən. [5] Bir yamaqlı, dəyərsiz papaq səni müqəddəs hesab edilən elə böyük məqama doğru getməkdən saxladı.Ey dərviş, sənin o cırıq papağa olan bağlılığın mənim əlimdə olan bütün mülkə, var-dövlətə olan bağlılığımdan daha çoxdur.Bil ki, həqiqi zahid...

**76.** Nöqtələrin yerinə uyğun gələn nümunə hansıdır?
A) dünyəvi tərəqqi üçün çalışmamalı, özünü var-dövlətdən məhrum etməlidir.
B) mağarada yaşamalı və daim oruc tutmalıdır.
C) elmi əsərlər oxumalı, öyrəndiklərini həyata keçirməlidir.
D) var-dövləti qəlbən sevməlidir.
E) heç nəyi olmayan yox, heç nəyə bağlı olmayandır.

**77.** Mətndə hansı suala cavab **yoxdur**?
A) Alimin hansı sahədə yüksək elmi dəyəri olan kitabı dərvişin əlinə keçir?
B) Alimin dərvişi aparmaq istədiyi müqəddəs məkan hansı şəhərdə yerləşirdi?
C) Dərviş alimin kitabını oxuduqdan sonra nə qərara gəlir?
D) Dərvişi hansı mətləb narahat edirdi?
E) Dərviş nəyə görə geri qayıtmaq istəyirdi?

**78.** Cədvələ əsasən mətndə altından xətt çəkilmiş sözün şərhi ilə bağlı doğru fikirləri müəyyən edin.

| *Yerinə görə mənası* | *Həmin mənanın ifadə olunduğu cümlə* |
|---|---|
| **1.** *təklif*<br>**2.** *məsələ*<br>**3.** *məlumat* | **4.** *O, çətin bir məsələ qarşısında özünü itirmiş kimi dururdu.*<br>**5.** *Bu təklifi yerə salmamış, düşünmüş, yaxşıca dəyərləndirmişdi.* |

A) 1,4 B) 2,4 C) 1,5 D) 2,5 E) 3,5

**79.** Mətndən çıxan əsas fikri müəyyənləşdirin.
A) Libasım yamaq götürür, qarnım yox.
B) Gözü tox olanın könlü də tox olar.
C) Yalançının dili topuq vurar.
D) Varlılığa tələsən yoxsulluğa tez düşər.
E) Malını yaxşı saxla, qonşunu oğru tutma.

**80.** "*Dərviş könülsüz surətdə razı olur*" cümləsinin mətndə uyğun yerini müəyyən edin.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

**81.** Verilmiş cümlələrdə mübtədaların ifadə vasitəsinə görə düzgün ardıcıllığını müəyyən edin.
● *Üfüqə qədər uzanan taxıl zəmiləri ananın gözləri qarşısında dalğalandı.*
● *Gənc təmkinini pozmadan dərvişin sualına cavab verdi.*
● *Ucu-bucağı görünməyən dərya sıxıla-sıxıla geri çəkilirdi.*
● *Müəllim istəyən qədrini bilər.*
● *Ey oğul, sən yenə də qənaətlə dolan.*

***1. feili birləşmə*** ***2. sifət*** ***3. isim***
***4. ismi birləşmə*** ***5. əvəzlik***

A) 1,4,5,2,3 B) 5,1,4,2,3 C) 4,1,3,2,5
D) 1,3,4,2,5 E) 4,2,3,1,5

**82.** Söz sırasını düzgün bərpa etdikdə hansı cümlənin sintaktik təhlili
〰 ━━━ ┈┈┈ ≋≋ ═══ *sxeminə uyğun olar?*
A) Heyranlıqla təbiətin bu əvəzsiz gözəlinə cavan ovçu tamaşa edirdi.
B) Qayığı dəlirdi arı kimi vızıldaşan güllələr.
C) Gözləri eyvanın yanındakı qoca meynəyə sataşdı birdən.
D) Dilqəmdən kənd adamları bunun səbəbini soruşdular.
E) Qarabağ müharibəsinin iştirakçısı, azadlıq hərəkatının şəhid qızıdır gənc jurnalist Salatın Əsgərova.

**83.** Mürəkkəb adlardan biri **səhv** yazılmışdır:
A) Ağstafa Rayon Təhsil Şöbəsi
B) Beynəlxalq Ana Dili Günü
C) Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
D) Humanitar Siyasət Məsələləri Şöbəsi
E) Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti

**84.** Nümunədə hansı durğu işarələri buraxılmışdır?
*Düşmənin qaçaqaçda qoyub getdiyi araba mətbəx şeyləri silah ərzaq motosiklet benzin çəlləkləri heç nə nəzərimi cəlb etmədi.*
A) 2 tire, 3 vergül B) tire, qoşa nöqtə, 3 vergül
C) tire, 4 vergül D) qoşa nöqtə, 4 vergül
E) tire, 5 vergül

**85.** Hər iki fikri hansı nümunəyə aid etmək olar?
● *Müraciət olunan şəxsi bildirən söz isimlə ifadə olunub.*
● *Danışanın ifadə etdiyi fikrə münasibət bildirən söz başqa məqamda qoşma kimi də işlənə bilir.*
A) Dostum, "Əkinçi" bağlansa da, əlbəttə ki, Azərbaycan mətbuatının sonrakı inkişafına güclü təkan oldu.
B) Ə.Ələkbərov, həqiqətən, dramatik rolların əvəzsiz ifaçısı idi.
C) Sultanım! Bu vəziyyətdə tərəddüd etmək, məncə, yersizdir.
D) Uşaqlar, Parisin, əsasən, klassik üslubda ucaldılmış imarətləri arasında Pompidu İncəsənət Muzeyi qeyri-adi görkəmi ilə görənləri heyran edir.
E) Mən bilirəm, Gülgəz, sənin bu işdən xəbərin yoxdur.

**86.** "*Olimpiadada iştirak edən oğlan bacısı kimi həyəcanlı deyildi*" cümləsində ikinci dərəcəli üzvlərdən işlənmişdir?
A) yalnız zərflik B) təyin və tamamlıq
C) yalnız təyin D) təyin və zərflik
E) təyin, tamamlıq və zərflik

**87.** Cümləni genişləndirən üzvləri müəyyən edin.
*Qəddar[1] tiran[2] yırtıcı[3] heyvandan[4] pisdir[5]. (Konfutsi)*
A) 1,2,3 B) 1,5 C) 1,3,4 D) 3,5 E) 2,4,5

**88.** Hansı nümunə bitmiş fikir ifadə edir, lakin cümlə üzvlərinə görə təhlil **olunmur**?
A) Cənab, nə lazımdır? B) Deyəsən, vaxtdır.
C) Bəlkə də, gələrdi. D) Əlbəttə, dostum.
E) Təbriz şəhəri. Xalça fabrikinin qarşısı.

**89.** "Filosof danışarkən ağsaçlı qoca ona diqqətlə qulaq asırdı" cümləsindəki sözlər arasında göstərilən əlaqələrdən biri **səhvdir?**
A) filosof ← danışarkən
B) ağsaçlı → qoca
C) ona → qulaq asırdı
D) qoca ← qulaq asırdı
E) diqqətlə → qulaq asırdı

**90.** Hansı cümlədə məqsəd zərfliyi **işlənməmişdir**?
A) O, göylərə qanad çalmağa getdi,
Qızın qisasını almağa getdi. (*M. Rahim*)
B) Onlar nəcib, yüksək bir məqsəd uğrunda vuruşurdular.
C) Yollara baxmaqdan gözlərim axdı.
D) Səhər tezdən Cəlil yarışmağa bura gələcək.
E) O, kankan idi, amma acından ölməmək üçün arpa əkirdi.

**91.** Nümunələrdən birində üstündə rəqəm yazılmış sözlərin tərkibindəki bütün şəkilçilər ixtisar edilə bilər:
A) Bunlar Azərbaycan xalqı üçün sənət yarada[1]caqlar, mübarizə apara[2]caqlar, səhnə düzəldəcəklər.
B) Eldar danış[1]mırdı, gəlib-gedənlərə bax[2]ırdı, öz növbəsini gözləyirdi.
C) O, bilik[1]lilərə,bacarıq[2]lılara və gənclərə qayğı göstərərdi.
D) İndi mədənl[1]ərimizdə, zavodlar[2]ımızda və fabriklərimizdə təmirarası müddəti uzadırlar.
E) Usta Zeynal qeyr[1]ətlidir, ağıllı[2]dır və artıq dərəcədə vəfalıdır.

**92.** Cümləni elə tamamlayın ki, xəbər həm ismi, həm də feili xəbər kimi izah edilə bilsin.
***Anbarda saxlanılanlar ...***
A) baha qiymətə satılacaq. B) yanacaqdır.
C) kəndin taxılıdır. D) ərzaq mallarıdır.
E) təhvil verilməlidir.

**93.** Hansı cümlədə yer zərfliyinin əlavəsi işlənmişdir?
A) Mərdəkana – bağına qayıdanda da Nəcəfoğlu eyni sözləri təkrar edirmiş.
B) Əsmər xala İlyası burada – Tamamın evində gördükdə təəccübləndi.
C) Uzaqda – pillələrin qurtaracağında ağ mərmər məhəccər vardı.
D) Mənim fikrim orada – yazı taxtasında idi.
E) Hacı İbrahimxəlilin evi kəndin ayağında – göl başında idi.

**94.** Asılı tərəfi sifət olan ismi birləşməni müəyyən edin.
*1. igidlər yurdu* *2. yaxşını qiymətləndirən*
*3. dünənki tədbir* *4. gənclik təravəti*
*5. qızıl bilərzik* *6. sabiq hakim*
A) 4,5,6 B) 1,2,3 C) 1,3,6 D) 2,3,4 E) 1,3,5

**95.** Altından xətt çəkilmiş hansı sözlər məna və qrammatik cəhətdən bir-biri ilə **əlaqələnmir?**
A) Göy üzündə bir dəstə qartal halay vurub hərlənirdi.
B) Dəniz bəbirləri həmişə pinqvinlərin yaşadığı sahil boyu üzüb əlverişli məqam gözləyirlər.
C) Günəş şüaları yer səthini qızdırır.
D) İmtahan zamanı düzgün bölən şagirdlər üçün daha uğurlu olur.
E) Bakı bağlarında belə hovuzlara "dəryaça" deyərdilər.

**96.** Hansı cümlələrdə "olmaq" feili müstəqil xəbər kimi işlənmişdir**?**
*1. Niyaz təzə yaylaqçı ilə çay qırağında tanış oldu.*
*2. O, çobanların yaşadığı alaçıqda olmuşdu.*
*3. Mərcan xanım Gəncədə olurdu.*
*4. Bu materiallardan tikintidə indi daha çox istifadə olunur.*
*5. Ən dadlı balıqlar bu çayda olur.*
A) 1,2,3 B) 2,4 C) 1,3,5 D) 1,4 E) 2,3,5

**97.** Doğru fikirləri müəyyən edin.

İsmi birləşmədir:
*1. mənim yazdığım*
*2. qədim əfsanə*
*3. zirvəyə doğru yol*

Feili birləşmədir:
*4. insanın azad yaşamağı*
*5. sən razı olanda*

**98.** Klasteri tamamlaya bilən nümunələri müəyyən edin. (*Bəzi durğu işarələri məqsədli şəkildə buraxılıb.*)

*Özünü başqasının uğursuzluğuna görə məhv etmə (Qrasian)*

*Yerinə görə həm əmr, həm də nida cümləsi kimi təhlil edilə bilər.*

*1. Oğlumu necə tərbiyə edim*
*2. Yalnız yıxılanı qaldırmaq üçün əyil ( Epikur)*
*3. İnsan qorxaqlarla əhatə olunanda özünü tənha hiss edir (Kamyu)*
*4. Xalq qanun yolunda öz evinin divarları uğrunda vuruşduğu kimi vuruşmalıdır(Heraklit)*
*5. Zirvələrə aparan yolda qoy səbrin sənə bələdçi olsun (Əl-Ənsari)*

**99.** Əgər iki həmcins tamamlıq arasında vergül işarəsindən istifadə edilməmişdirsə, bunun səbəbi nədir?
1. *ilə* bağlayıcısından istifadə edilməsi
2. *da, də* bağlayıcısından istifadə edilməsi
3. *ya, ya da* bağlayıcılarından istifadə edilməsi
4. *və* bağlayıcısından istifadə edilməsi

**100.** Uyğunluğu müəyyən edin.
***1. Ümumi şəxsli cümlə*** ***2. Müəyyən şəxsli cümlə*** ***3. Şəxssiz cümlə***
*a. Suda batan saman çöpündən yapışar.*
*b. Nərimanın həyəcandan rəngi qaçmışdı.*
*c. Tamaşanın sonunda aktyorları və müəllifi alqışladılar.*
*d. Atlılar dincəlmək üçün bir müddət kənddə qaldılar.*
*e. Sözünün yerini bilməyən zəvzəyin gərək dərsini verəsən.*

**RİYAZİYYAT**

**101.** $x^2 = 4x + 5$ tənliyinin müsbət kökünü tapın.
A) 1 B) 5 C) 4 D) 3 E) 2

**102.** $ABCD$ paraleloqramında $AB \perp BD, BD = 8$ və $AD - AB = 4$ . $BC$ tərəfi üzərində hər hansı $E$ nöqtəsi qeyd edilmişdir. $S_{\Delta AED}$ –ni tapın.
A) 24 B) 36
C) 12 D) 32
E) 48




**103.** $\frac{15}{4\sqrt{5}}$ kəsrini irrasionallıqdan azad etdikdən sonra ən kiçik məxrəcli $\frac{\sqrt{b}}{a}$ kəsri alındı. $a$ və $b$ natural ədədlər olarsa, $b\sqrt{a}$ ifadəsinin qiymətini tapın.
A) 8 B) 75 C) 90 D) 100 E) 120

**104.** İfadəni sadələşdirin: $\left(\frac{1}{x+2y}+\frac{2y}{x^2+2xy}\right):\frac{1}{x+y}$

A) $\frac{x-y}{x+y}$ B) $\frac{x-y}{y}$ C) $\frac{x}{y}$

D) $\frac{y}{x}$ E) $\frac{x+y}{x}$

**105.** Cədvəldə $y=\frac{k}{x}$ funksiyasının $x$ və $y$ dəyişənlərinə uyğun qiymətləri verilmişdir. Cədvələ əsasən a-b+c ifadəsinin qiymətini tapın.

| | | | | |
|---|---|---|---|---|
| $x$ | $a$ | 8 | 16 | $c$ |
| $y$ | 32 | 12 | $b$ | 24 |

A) −2 B) 3 C) −1 D) 2 E) 1

**106.** $a \parallel$ b $\parallel$ c olarsa, $\frac{x+y}{y-x}$ ifadəsinin qiymətini tapın.

A) 1 B) 4

C) 2 D) 5

E) 3




**107.** x = 3 və y = 2 olarsa, $\left(\frac{y\sqrt{y}}{x}\right)^{-y}$ ifadəsinin qiymətini tapın.

A) $\frac{2}{3}$ B) $\frac{9}{8}$ C) $\frac{\sqrt{3}}{5}$ D) $\sqrt{5}$ E) 2

**108.** Şəkildə tərəfinin uzunluğu $10\sqrt{2}$ sm olan kvadratın daxilinə perimetri 28 sm olan düzbucaqlı çəkilmişdir. Düzbucaqlının diaqonalının uzunluğunu tapın.

A) 5 B) 12

C) $4\sqrt{2}$ D) 10

E) $6\sqrt{2}$



**109.** $-3<x<-2$ və $1<y<3$ olarsa, $2x+3y$ cəminin ala biləcəyi tam qiymətlərin cəmini tapın.

A) 8 B) 7 C) −4 D) 5 E) −6

**110.** Hesablayın: $\sqrt{3\cdot\sqrt{144}}+\left(5\sqrt{2}\right)^2-\left(\frac{1}{3}\right)^{-3}$

A) 24 B) 29 C) 30 D) 36 E) 42

**111.** $7(x-5)\leq 3(x-1)$ bərabərsizliyini ödəyən ***cüt natural*** ədədlərin cəmini tapın.

A) 20 B) 22 C) 16 D) 18 E) 28

**112.** Şəkildə ən böyük tərəfinin uzunluğu $x$ olan ***korbucaqlı*** üçbucaq verilmişdir.İfadənin qiymətini tapın: $\sqrt{(9-x)^2}+\sqrt{(10-x)^2}+2\sqrt{(14-x)^2}$

A) 12 B) 9

C) 10 D) 17

E) 23




**113.** Tərəfi 10 sm olan $ABCD$ rombunun diaqonalları $O$ nöqtəsində kəsişir. $DO=6$ olarsa, rombun sahəsini tapın.

A) 135 B) 120

C) 96 D) 84

E) 72




**114.** $A(6;2)$ nöqtəsi koordinat başlanğıcı ətrafında saat əqrəbi istiqamətində 90° dönməsi nəticəsində $B$ nöqtəsinə çevrilir. $A$ və $B$ nöqtələrindən keçən düz xəttin bucaq əmsalını tapın.

A) 2 B) 4 C) $-2$ D) 1 E) $-\frac{1}{3}$

**115.** $ABC$ üçbucağında $\angle C=90^\circ$, AE tənböləndir. $CE=3,\ EB=5$ olarsa, $\tan\angle AEC$ − ni tapın.

A) $\frac{3}{5}$ B) $\frac{4}{3}$

C) 2 D) $\frac{12}{5}$

E) 1




Qəbul İmtahanı - 2023

**116.** $|2x-1| \leq 3$ bərabərsizliyini həll edin.

A) $(1;2)$ B) $[-3;2)$ C) $[-1;2]$
D) $(1;3]$ E) $\emptyset$

**117.** $AB$ və $CD$ parçaları $E$ nöqtəsində kəsişir. $\angle CAE = \angle BDE$, $AC = 24$, $BD = 16$, $ED = 10$ olarsa, $EA$ −ni tapın.




A) 18 B) 14
C) 15 D) 12
E) 10

**118.** $ABC$ üçbucağında $\angle C = 90^\circ$, $CE \perp AB$, $AE = x_1$, $BE = x_2$. $x_1$ və $x_2$ ədədləri $x^2 - 12x + 16 = 0$ tənliyinin kökləri olarsa, düzbucaqlı üçbucağın sahəsini tapın.




A) 24 B) 48
C) 12 D) 36
E) 32

**119.** Motorlu qayıq 20 km çay axını ilə, 16 km göldə hərəkət edərək bütün yola 2 saat vaxt sərf etdi. Çayın sürətinin $4\ \frac{km}{saat}$ olduğunu bilərək, motorlu qayığın durğun sudakı sürətini tapın.

A) $8\ \frac{km}{saat}$ B) $12\ \frac{km}{saat}$ C) $16\ \frac{km}{saat}$
D) $10\ \frac{km}{saat}$ E) $14\ \frac{km}{saat}$

**120.** Şəkildə katetləri $a$ və $b$, hipotenuzu $c$ olan düzbucaqlı üçbucaq verilmişdir. $a + c = 12$ olarsa, üçbucağın perimetrinin tam hissəsini tapın.




A) 18 B) 15
C) 20 D) 17
E) 22

**121.** ABCD trapesiyasının hündürlüyü $2\sqrt{3}$, oturacaqları $BC = \sqrt{4 - 2\sqrt{3}}$ və $AD = \sqrt{4 + 2\sqrt{3}}$ olarsa, onun sahəsini tapın.

A) $2\sqrt{3}$ B) 7 C) $4\sqrt{3}$ D) 8 E) 6

**122.** Şəkildə $y = \frac{-12+3a}{x}$ funksiyasının qrafiki verilmişdir. $a-nın$ ala biləcəyi bütün natural ədədlərin cəmini tapın.




**123.** Kiçik oturacağı yan tərəfinə bərabər olan bərabəryanlı trapesiyanın diaqonalı yan tərəfinə perpendikulyardır. Trapesiyanın perimetri 60 sm olarsa, onun böyük oturacağının uzunluğunu tapın.



**124.** $ABC$ üçbucağında $\angle C = 90^{\circ}, \angle AEB = 135^{\circ}$, $AB = 25$, $AE = \sqrt{98}$ olarsa, $BE$ parçasının uzunluğunu tapın.




**125.** Uyğunluğu müəyyən edin.

*1.* $\boldsymbol{y = 2x - 4}$

*2.* $\boldsymbol{y = 10 - 5x}$

*3.* $\boldsymbol{y = 3x}$

*a)* Bucaq əmsalı 3-ə bərabərdir

*b)* Bucaq əmsalı $-5$-ə bərabərdir.

*c)* Bucaq əmsalı 2-ə bərabərdir.

*d)* $y = -5x + 2$ düz xəttinə paraleldir

*e)* y= −0,5x+1 düz xəttinə perpendikulyardır

# TDV BAKI TÜRK LİSEYİNİN İLLƏRƏ GÖRƏ QƏBUL UĞURLARI

## 2001 2022

- 700: 19
- 600+ bal: 878
- Məzun sayı: 1896
- Qızıl medal: 134
- Ölkə birincisi: 33
- Prezident təqaüdçüsü: 878

## 2022

- 2 — 300 BAL (*Buraxılış IX sinif*)
- 1 — 400 BAL (Qəbul)
- 33 — 650 - 700 BAL
- 33 — 600 - 650 BAL
- 66 — 600 - 700 BAL
- 5 — Qızıl Medal
- 1 — 394 BAL (*Ölkə birincisi*)
- 3 — Prezident təqaüdü
- 118 — Fərqlənmə Diplomu
- 84 — Xarici ölkəyə qəbul
- 19 — YTB təqaüdü
- 93 — Fərqlənmə Diplomu (*XI sinif*)

TDV-BTL 2023